# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ







# İXRAC İCMALI

## 2017-ci il / May №2






2017-ci ilin 4 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi

www.iqtisadiislahat.org
info@ereforms.org

## *"Azexport" portalının yaradılması çox müsbət hadisədir və getdikcə bu portala dünyada maraq artacaq"*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsindəki çıxışından**




*"Keçən il biz "Azexport" portalını yaratdıq. Bu da dövlət tərəfindən atılmış addımdır ki, biz sahibkarların işini yüngülləşdirək. "Azexport" portalı bu gün artıq dünya miqyasında özünü tanıtdıra bilib. Bu portala maraq getdikcə daha böyük olacaq. İndi əsas vəzifəmiz ondan ibarətdir ki, biz xaricdən sifariş olunan malların istehsalını təmin edə bilək. İndi bəzi hallarda sifariş olunur, ancaq ixraca göndəriləcək kifayət qədər məhsulumuz hələ ki, olmur. Ancaq "Azexport" portalının yaradılması çox müsbət hadisədir və getdikcə bu portala dünyada maraq artacaq..."*

*"...İndi biz "Azexport" portalını müfəssəl məlumatlarla təmin etməliyik. Sahibkarlar bu portala öz fəaliyyətləri haqqında məlumat yerləşdirsinlər və mütəmadi olaraq bu portalla maraqlansınlar, görsünlər ki, nəyə tələbat var, hansı sifarişlər yerləşdirilir. Çünki biz artıq bunun ilkin nəticələrini görürük. Portalın fəaliyyəti nəticəsində artıq bir çox kontraktlar imzalanıb. Ancaq, eyni zamanda, nəyi görürük? Bəzən sifariş gəlir, ancaq ixrac ediləcək məhsulumuz olmur. Ona görə, bu portalın mənası təkcə ondan ibarət deyil ki, biz öz məhsulumuzu ixrac edək, halbuki birinci vəzifə bundan ibarətdir. Eyni zamanda, bu portal bizə tələbat haqqında, regionlar haqqında məlumat verəcək, hansı regiondan, hansı ölkədən hansı məhsula tələbat var və bunu dövlət qurumları da, sahibkarlar da görəcək. Görəcək ki, misal üçün filan məhsula tələbat var, ancaq Azərbaycanda bunun istehsalı lazımi səviyyədə deyil. Deməli, dövlət də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə o sahəyə kreditlər verəcək. Sahibkar da görəcək ki, əgər o məhsulu istehsal etsə, yetişdirsə, bunun bazarı olacaqdır. Ona görə, buna nail olmaq üçün birinci növbədə, bütün Azərbaycan şirkətləri öz məhsulları, ixracyönümlü məhsulları haqqında "Azexport" portalına məlumatlar yerləşdirsinlər və bu portalı izləsinlər. Əlbəttə ki, dövlət qurumları da daim monitorinq aparmalıdırlar. Tələbat əslində təklifi də stimullaşdıracaq".*

# MÜNDƏRİCAT


4 SƏHİFƏ
**Qeyri-neft ixracı**
Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

7 SƏHİFƏ
**Azexport.az**
Azexport.az portalına aprel ayında 29.9 milyon ABŞ dolları məbləğində ixrac sifariş daxil olub

12 SƏHİFƏ
**Azexport.az**
Azexport.az portalının inteqrasiya olunduğu portallara dair məlumat

13 SƏHİFƏ
**İslahat tədbiri**
Bitki və bitkiçilik məhsulları ixrac edildikdə fitosanitar sertifikatı tələb olunmayacaq

14 SƏHİFƏ
**İslahat tədbiri**
İxrac gömrük bəyannaməsinin Azexport portalından göndərilməsi mümkün olacaq


*© İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqdır. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzun müddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil edir.*

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## Bu ilin aprel ayında 143 milyon ABŞ dolları qeyri-neft məhsulu ixrac olunub

Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracın artırılması ilə bağlı görülən tədbirlər nəticəsini verməkdədir. 2017-ci ilin aprel ayı ərzində 377 şirkət tərəfindən 143 milyon ABŞ dolları həcmində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Aprel ayı üzrə ixrac olunan əsas mallar qızıl, təzə və ya soyudulmuş tomat, kimya sənayesi məhsulları, elektrik enerjisi fındıq, pambıq lifi, şəkər, alüminium, xurma, alma və s. dir. Aprel ayında qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və İtaliya qərarlaşmışdır.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin 4 ayı ərzində isə qeyri-neft sektoru üzrə ixrac 2016-cı ilin müvafiq ilə müqayisədə 22 faiz artmışdır. Bu ixrac əməliyyatlarında 846 şirkət iştirak etmişdir. 2017-ci ilin 4 ayı ərzində qeyr-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistan var.

Onu da qeyd edək ki, bu ilin 4 ayı ərzində 2 ölkəyə Rusiya və Türkiyəyə 100 milyon ABŞ dollarında çox qeyri-neft sektoruna aid mal ixrac olunub. 4 aylıq məlumatların təhlilindən aydın olmuşdur ki, qeyri-neft sektoru üzrə ixracda ilk yeri xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen tutur (*34,1 milyon ABŞ dolları həcmində ixrac olub*). İkinci yerdə isə təzə və ya soyudulmuş tomat qərarlaşıb (*33,8 milyon ABŞ dolları həcmində ixrac olub*). İxrac həcmi 28 milyon ABŞ dolları olan qabığı təmizlənmiş fındıq isə 3-cü yerə sahib olub.

**Ardı səhifə 5-də**




**Aprel ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi**

# 2017-ci ilin 4 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 22 faiz artıb

## Yanvar-aprel aylarında pambıq lifinin ixracında 7,3 dəfə artım olub

Əvvəli səhifə 4-də

2017-ci ilin yanvar-aprel aylarında 2016-cı ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən meyvə-tərəvəz ixracı 26,7 faiz, çay – 24,8 faiz, pambıq lifi – 7,3 dəfə, şəkər ixracı isə 7 faiz, bitki və heyvan mənşəli yağları – 7,0 faiz, elektrik enerjisi 8,3 dəfə, kimya sənayesi məhsulları – 82,3 faiz, alüminium və ondan hazırlanan məmulatlar – 37,2 faiz artmışdır.

Burada bir nüansı da vurğulayaq ki, respublikamızda pambıqçılığın inkişafına verilən dəstək artıq özünü ixracda göstərir. Bu ilin 4 ayında pambıq lifinin ixracının 7,3 dəfə artmasına buna əyani sübutdur.

2017-ci ilin aprel ayı ərzində ixrac olunan malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumatla təqdim olunan infoqrammalardan tanış ola bilərsiniz.

## 2016-cı ilin ilk 4 ayına nisbətən 2017-ci ilin müvafiq dövründə qeyri-neft ixracının artımı (%-lə)




*Mənbə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin aprel ayında əsas qeyri-neft ixrac mallarının siyahısı




*Qeyd: Aprel ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

*Mənbə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi*




## Azexport.az portalına aprel ayında 29.9 milyon ABŞ dolları məbləğində ixrac sifariş daxil olub

Azexport.az portalına 2017-ci ilin 4 ayı ərzində 42 ölkədən ixrac sifarişləri daxil olub. Aprel ayında ilk dəfə portala sifariş daxil olan ölkələr isə Hindistan, Çin, İspaniya, Gürcüstan, Yəmən, Əlcəzair, Sinqapur, Avstraliya və Fələstindir. Azexport.az portalına aprel ayında daxil olan sifarişlərin ümumi dəyəri isə 29.9 milyon ABŞ dolları olmuşdur.

Məlumat üçün bildirək ki, 2017-ci ilin yanvar ayında Azexport.az portalına 48 milyon ABŞ dolları, fevral ayında 6.5 milyon ABŞ dolları, mart ayında isə 27 milyon ABŞ dolları, aprel ayında isə 29.9 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub.

Aprel ayında sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olur ki, qeyri-neft sektorunda istehsal edilən müxtəlif məhsullar - konyak, şərab, soğan, noxud, göbələk, yumurta, kərə yağı, pendir, pambıq yağı, albalı şirəsi, nar şirəsi, fındıq ləpəsi, quru süd, toyuq əti, bibər turşusu, günəş paneli, mühərrik yağı, boya sifariş olunan mallar arasındadır. Bu barədə daha dolğun məlumat təqdim olunan infoqrammalarda verilib.

**2017-ci ilin aprel ayında Azexport.az portalından ixrac sifarişi alan mallar**




*Qeyd: Aprel ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektorunda istehsal edilən digər məhsullara da (pambıq yağı, günəş paneli, albalı şirəsi, acı bibər turşusu, konyak, göbələk və s.) ixrac sifarişi daxil olumuşdur.*

*Mənbə: Azexport.az*

# Azərbaycanın nar şirəsini sifariş edən əsas ölkələr

**2017-ci ilin 4 ayı ərzində Azexport.az portalında ən çox ixrac sifariş alan məhsullardan biri nar şirəsi olmuşdur.**

Belə ki, 4 ay ərzində Fransa, Almaniya, Səudiyyə Ərəbistanı, Türkiyə, Ukrayna, Misir, Latviya, Kanada, Polşa, Rusiya, Danimarka, Hindistan və digər ölkələrdən nar şirəsinə ixraca sifarişi daxil olmuşdur. Qeyd edək ki, xarici sifarişçilər nar şirəsi ilə yanaşı nar şərabına da böyük maraq göstərirlər. Azexport.az portalına daxil olan sifarişləri isə operativ olaraq nar şirəsi istehsal edən müəssisələrə yönəldilib.




*Mənbə: Azexport.az*

## Azərbaycandan fındıq ləpəsi sifariş edən əsas ölkələr

Azərbaycanın qeyri-neft ixracında mühüm paya sahib olan fındıq ləpəsinə dünya bazarında tələbat böyükdür. 2017-ci ilin 4 ayı ərzində ABŞ başda olmaqla, Çin, Rusiya, Bolqarıstan kimi ölkələrdən ixrac sifarişləri daxil olmuşdur.

Azexport.az portalına 4 ayı ərzində fındıq ləpəsi ilə bağlı daxil olan ixrac sifarişlərinin dəyəri isə 1 milyon ABŞ dollarından çox olmuşdur.

*Bax səhifə 10-dakı infoqrammaya*

## Azərbaycandan fındıq ləpəsi sifariş edən əsas ölkələr




## Azərbaycanın şərab və konyaklarını sifariş edən əsas ölkələr

Azexport.az portalına daxil ilan ixrac sifarişlərinin təhlili göstərir ki, başda keçmiş SSRİ respublikaları Rusiya və Ukrayna olmaqla dünyanın bir çox ölkələrində (Benin, Bolqarıstan, İspaniya, Hindistan, Avstraliya və s.) Azərbaycanın şərab və konyaklarına böyük maraq var. 2017-ci ilin 4 ayı ərzində azexport.az portalına şərab və konyaklarla bağlı daxil olmuş ixrac sifarişlərinin məbləği 100 min dollardan çox olmuşdur.




*Mənbə: Azexport.az*

## Azexport.az portalına 2017-ci ilin 4 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (%)




| | | | |
|---|---|---|---|
| Rusiya 15.7 | Qazaxıstan 3.9 | ABŞ 3.1 | Hindistan 2.4 |
| Ukrayna 12.6 | Polşa 3.9 | Səudiyyə Ərəbistanı 3.1 | Toqo 2.4 |
| Türkiyə 7.9 | İraq 3.9 | Misir 2.4 | Özbəkistan 2.4 |
| İran 4.7 | Nigeriya 3.1 | Benin 2.4 | Pakistan 1.6 |

*Mənbə: Azexport.az*

## Azexport.az portalının inteqrasiya olunduğu portallara dair məlumat

**2017-ci ilin 4 ayı ərzində Azexport.az portalının dünya üzrə məşhur 5 portalla inteqrasiyası həyata keçirilib.** Bunlar dünyanın ən böyük topdan satış platforması olan www.alibaba.com, beynəlxalq e-ticarət mərkəzi olan www.all.biz, ərəb ölkələrinə ixrac potensialı olan www.tradekey.com, Şərqi Asiya ölkələrinə ixrac potensialı daha güclü olan www.ec21.com və Rusiyanın kənd təsərrüfatı, qida və emal sənayesi sahəsində satış həyata keçirən www.agroserver.ru portallarıdır.

Hazırda Azexport.az portalı ilə Türkiyədə Dünya Kiçik və Orta Sahibkarlıq Forumu tərəfindən yaradılan KOBİ Market arasında inteqrasiya ilə bağlı iş aparılır.

## Azexport.az portalının inteqrasiya olunduğu portallar



# Bitki və bitkiçilik məhsulları ixrac edildikdə fitosanitar sertifikatı tələb olunmayacaq

**Avropa İttifaqı ölkələrinə ixrac edilən yeyinti məhsulları üçün keyfiyyət sertifikatı tələb edilməyəcək**

***Aprelində 12-də dərc edilən qərar mayın 12-də qüvvəyə minib***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 aprel 2017-ci il tarixli 134 saylı qərarı ilə “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişikliklər edilib. Bu dəyişiklərdən sonra Azərbaycandan Avropa İttifaqı ölkələrinə ixrac edilən yeyinti məhsulları üçün keyfiyyət sertifikatı tələb edilməyəcək. Eyni zamanda indiyə kimi gömrük ərazisində məcburi sertifikatlaşdırılmalı olan mallar gömrük ərazisinə idxal edildikdə uyğunluq sertifikatının da təqdim edilməsi tələb olunurdu. Dəyişikliyə əsasən bu sertifikat da tələb edilən sənədlər sırasından çıxarılıb. Bitki və bitkiçilik məhsulları ixrac edildikdə fitosanitar sertifikatı da tələb olunmayacaq.

Beləliklə bu dəyişiklikdən sonra gömrükdə aşağıdakı sertifikatlar tələb olunmayacaq:

**-keyfiyyət sertifikatı** (*yeyinti məhsulları Avropa İttifaqı ölkələrinə ixrac edildikdə*)

**-fitosanitar sertifikatı** (*bitki və bitkiçilik məhsulları ixrac edildikdə*)

**-uyğunluq sertifikatı** (*gömrük ərazisində məcburi sertifikatlaşdırılmalı olan mallar gömrük ərazisinə idxal edildikdə*)

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Nicat Hacızadə “Gömrük sərhəddindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydalarına” edilən dəyişiklikləri şərh edib. “Nazirlər Kabinetinin son qərarına əsasən, ixrac-idxal əməliyyatlarında sərhəd keçid məntəqələrində tələb olunan sənədlərin sayı azaldılıb. Belə ki, son dəyişlikliyə qədər ixrac missiyasını həyata keçirən sahibkarlardan fitosanitar, keyfiyyət, mənşə və idxal missiyasını həyata keçirən sahibkarlardan isə uyğunluq və mənşə sertifikatı tələb olunduğu halda, artıq sözügedən sənədlər qaydalardan çıxarılıb. Qeyd olunan qərar, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamın icrasını təmin etmək məqsədilə həyata keçirilib.

Nazirlər Kabinetinin ixrac-idxal əməliyyatlarında tələb olunan sənədlərlə əlaqədar dəyişikliyi qabaqcıl iqtisadiyyata malik ölkələrin təcrübəsinə əsaslandığını bildirən Mərkəzin analitiki deyib ki, bütün bunlar sahibkarların ixrac-idxal missiyalarını daha asan həyata keçirə bilməsi üçün növbəti islahat tədbirlərinin bir hissəsidir. “Bildiyiniz kimi Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində son illər sahibkarların öz ixrac-idxal əməliyyatlarını daha rahat şəkildə yerinə yetirmələri üçün bir sıra tədbirlər həyata keçirilib. İxrac-idxal əməliyyatlarında sənədlərin azaldılması sahibkarların öz risklərini tənzimləmələrinə imkan verəcəkdir. Belə ki, ixracatçı subyektlərdən sərhəd keçid məntəqələrində bitki və bitkiçilik məhsulları üçün tələb olunan fitosanitar sertifikat, yeyinti məhsulları üzrə Avropa İttifaqı ölkələrinə ixrac üçün tələb olunan keyfiyyət sertifikatı sərhəd keçid məntəqələrində artıq tələb olunmayacaq. Habelə, idxal əməliyyatlarında gömrük ərazisində məcburi sertifikatlaşdırılmalı olan mallar gömrük ərazisinə idxal edildikdə uyğunluq sertifikatı tələb olunmayacaq. Sahibkarlar ixrac üçün nəzərdə tutulan ölkənin tələblərinə uyğun

olaraq, həmin sənədləri könüllü şəkildə ala bilər. Bundan əlavə, sözü gedən qaydaya müvafiq olaraq, ixrac və idxal əməliyyatlarında mənşə "Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydalarının" 10.1-ci bəndində göstərilən hallarda tələb ediləcəkdir. Nazirlər Kabinetinin qaydalarına edilən dəyişikliyin ölkənin beynəlxalq reytinqlərdə mövqeyinə də təsir göstərəcəyini vurğulayan Nicat Hacızadə tələb olunan sənədlərin azalması nəticəsində ölkənin mövqeyinin yüksələyəcəyini vurğulayıb. "Bildiyiniz kimi, beynəlxalq reytinqlərdə gömrük fəaliyyətini tənzimləyən müxtəlif indikatorlar var ki, onlardan biri də "Sərhəddə ticarət" göstəricisidir. Sözügedən indikatorda ixrac və idxal əməliyyatlarında tələb olunan sənədlərin azaldılması Azərbaycanın mövqeyini bir qədərdə yüksəldəcəkdir. Nəzərə almaq lazımdır ki, sərhəddə ticarət göstəricisi xarici investorların xüsusi diqqət mərkəzində olduğundan, ölkəyə xarici investisiya axınını artırması gözləniləndir.

***Qeyd:*** *Sahibkarların nəzarinə çatdıraq ki, fitosanitar sertifikatı bitki sağlamlığına təminat verən beynəlxalq sənəddir. Yəni Azərbaycanın gömrük əməkdaşları tərəfindən fitosanitar sertifikatı tələb edilməsədə fitosanitar əhamiyyətli məhsullar ixrac edilən ölkə yükü bu sertifikatsız qəbul etməyə bilər. Onun üçün də bitki və bitki məhsulları ixrac edən fiziki və hüquqi şəxslər bu nüansı diqqətə almalıdır. Bu sahədə ixracatçıların işini asanlaşdırmaq üçün isə kompleks tədbirlər görülür. Belə ki, qarşıdakı aylardan etibarən isə fiziki və hüquqi şəxslər Azexport.az internet portalı vasitəsi fitosanitar sertifikatı almaq üçün elektron qaydada müraciət edə biləcəklər.*

## İxrac gömrük bəyannaməsinin **Azexport** portalından göndərilməsi mümkün olacaq

"Azərbaycan Respublikası Prezidentinin Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər" haqqında 22 fevral 2017-ci il Fərmanına əsasən, Azexport.az internet portalında yaradılacaq "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı bölməsi vasitəsi ilə Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələr vahid elektron ərizə əsasında elektron qaydada əldə etmələri və ixrac gömrük bəyannaməsini elektron qaydada göndərməsi mümkün olacaqdır.

Həmçinin ixrac prosesində iştirak edən fiziki və hüquqi şəxslər "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" vasitəsi ilə vahid elektron ərizə əsasında digər sertifikatları da əldə edə biləcəklər.

Məlumat üçün qeyd edək ki, Dövlət Gömrük Komitəsinin (DGK) Kollegiyası "Gömrük bəyannamələri haqqında məlumatın verilməsi üzrə inzibati reqlament"də təsdiq edilib və bu il aprel ayının 22-dən qüvvəyə minib.

Bu inzibati reqlamentə əsasən http://www.e-gov.az, http://dgk.gov.az/az/e-xidnew.html ünvanlarında təqdim edilən elektron xidmət vasitəsilə müvəkkil banklar və digər aidiyyəti təşkilatlar bəyannaməsinin VÖIN-ini və gömrük bəyannaməsinin qeydiyyat nömrəsini daxil etməklə gömrük bəyannaməsini elektron formada əldə edə bilirlər. Elektron xidmət tam avtomatlaşdırılıb və ödənişsizdir.

# İXRAC İCMALI




## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ


## Bizimlə əlaqə

(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi 16

/iqtisadiislahat